**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ELDƏNİZ ELMAN OĞLU MƏMMƏDOV**

# M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASININ DÖVRİ MƏTBUAT FONDU: TARİXİ, MÜASİR VƏZİYYƏTİ, OXUCULARA XİDMƏT VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ (1923-2007-CI ILLƏR)

**İxtisas: 3356.01**
**Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin «Kitabxanaşünaslıq» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Abuzər Alı oğlu Xələfov**
Bakı Dövlət Universitetinin Fəxri professoru,
Əməkdar elm xadimi, tarix üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Aybəniz İbrahim qızı Əliyeva-Kəngərli**
filologiya üzrə elmlər doktoru, professor

**Solmaz Azay qızı Sadıqova**
tarix üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Azərbaycan tarixi» kafedrası**

Dissertasiyanın müdafiəsi «_10_» mart 2017-ci ildə saat ____ -da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 02 dekabr 2016-cı il tarixli 188 saylı əmrinə əsasən 3356.01 – «Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq» ixtisasında tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi üçün Bakı Dövlət Universiteti nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1148, Bakı şəhəri, Akademik Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, 2 saylı tədris binası, auditoriya № 405.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» _________ 2017-ci ildə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya Şurasının elmi katibi,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent:** **E.Y.Əhmədov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqillik şəraitində respublikamızın sosial-iqtisadi inkişafı Azərbaycan xalqının mənəvi, elmi-texniki və iqtisadi potensialının güclənməsi, suverenliyimizin möhkəmlənməsi üçün geniş imkanlar açmışdır.

1995-ci ildə qəbul olunmuş «Azərbaycan Respublikasının Konstitusiyası» cəmiyyətə xidmət edən bütün sosial institutların fəaliyyətinin demokratik prinsiplər əsasında təkmilləşdirilməsi üçün hüquqi baza yaratmışdır. Bu ali dövlət sənədində cəmiyyət üzvlərinin mədəni təsisatlardan və mədəni sərvətlərdən istifadə etmək, eləcə də informasiya əldə etmək hüquqları bariz şəkildə göstərilmişdir. Məhz bu cəhətdən, cəmiyyətin mühüm mənəvi təsisatı, mədəni sərvəti və informasiya bazası olan kitabxanalar müasir dövrdə mürəkkəb sosial funksiyaları yerinə yetirməklə insanların mütaliə mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynayır.

«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, «Kitabxana - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut»dur.[1]

Bəşər sivilizasiyasının formalaşmasında əvəzsiz xidmətləri olan kitabxanalar öz inkişafının bütün mərhələlərində cəmiyyətin tərəqqisinə səmərəli təsir göstərmişdir. Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, professor, əməkdar elm xadimi Abuzər Xələfovun təbirincə desək, «...Kitabxanalar tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmiş, onun tələbatını ödəmiş, sifarişini yerinə yetirmişdir. Beləliklə, kitabxanaların yaranması, formalaşması, inkişafı, fəaliyyəti və cəmiyyətdə tutduğu mövqe bilavasitə onu yaradan cəmiyyətlə bağlıdır».[2]

Kitabxanaları mədəniyyətimizin mühüm tərkib hissəsi, xalqımız üçün

---

[1] «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan, 1999, 14 mart.

[2] Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: III hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003, 314 s.

müqəddəs bir yer, bilik və zəka mənbəyi kimi qiymətləndirən, təhsil almaqda, elmlərə yiyələnməkdə özünü kitaba borclu hesab edən, böyük mütaliəçi və kitab həvəskarı olan ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza başçılıq etdiyi dövrdə, vaxtının məhdud olduğu bir şəraitdə - 1995-1997-ci illərdə beş dəfə bu kitabxanaya gəlməsi, onun işi ilə, əməkdaşları ilə tanış olması, kitabxanada keçirilən tədbirlərdə iştirak və çıxış etməsi dediklərimizin əyani sübutudur.[1]

Kitabxanalar, onların fondunu təşkil edən informasiya ehtiyatları hər bir sivil cəmiyyətin milli xəzinəsi kimi yüksək intellektual potensiala malikdir. Çoxəsrlik kitabxana işi tarixindən məlumdur ki, kitabxanaların fəaliyyəti heç vaxt cəmiyyətdə baş verən mühüm ictimai-siyasi proseslərdən təcrid olunmamışdır. Belə ki, kitabxanalar, onların mühafizə etdiyi sənəd (kitab, qəzet, jurnal və digər ədəbiyyat) fondu cəmiyyətdə baş verən bütün kəmiyyət və keyfiyyət dəyişiklikləri prosesində bilavasitə iştirak etmiş və bu proseslərə səmərəli təsir göstərmişdir. Ümumi kitabxana fonduna bu aspektdən yanaşdıqda, bu sistemli sənəd kütləsi içərisində dövri mətbuat fondunun mühüm yer tutduğu xüsusi vurğulanmalıdır.

Hər bir dövlətin tarixində dövri mətbuatın müstəsna xidmətləri olmuşdur. Hətta müasir dövrümüzdə həyatımızın tərkib hissəsinə çevrilən radio, televiziya və internet öz dayaq nöqtəsini, ilkin əsasını məhz dövri mətbuatda tapmışdır.[2]

Bütün dövrlərdə dövlətin, dövlətçiliyin, ictimai-siyasi, ədəbi-bədii fikrin və təfəkkürün formalaşmasında dövri mətbuatın rolu əvəzolunmazdır. Dövri mətbuat dedikdə, ilk növbədə, dövri mətbuat orqanları - qəzet və jurnal nəzərdə tutulur.[3] Daimi adı, cari nömrəsi olan qəzet, jurnal, toplu, bülleten, azı ildə bir dəfə çıxan başqa nəşrlər, habelə birdəfəlik tirajı yüz nüsxədən çox olan digər mətbuat növləri də dövri mətbuat orqanları sayılır.[4]

---

[1] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010, 432 s.

[2] «Azərbaycan» qəzeti milli mətbuatın mütərəqqi ənənələrini və müasir nailiyyətlərini özündə birləşdirir // Azərbaycan, 2008, 20 dekabr.

[3] Rüstəmov Ə., Ağayeva X. Sənəd (documentum) anlayışı, onun genezisi və mahiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. B.: Bakı Universiteti Nəşriyyatı, 2008, №2, s. 69-78.

[4] Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2007, 20 s.

Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zənginləşməsi proseslərinə öz layiqli töhfələrini verməkdədir.[1] Bu baxımdan, hazırda fondunda 5 milyon nüsxəyə yaxın sənəd informasiyası saxlanılan və əsası 1923-cü ildə qoyulan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının xalqımızın maariflənməsində, ölkəmizin elmi, iqtisadiyyatı, mədəniyyəti və təhsilinin inkişafında müstəsna rolu vardır. [2] Milli Kitabxana Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, habelə Azərbaycan haqqında xarici ölkələrdə nəşr olunmuş çap əsərlərini və dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə qiymətli və digər məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitab saxlayıcısıdır. Hazırda «Kitabxana işi haqqında» və «Nəşriyyat işi haqqında» Azərbaycan Respublikasının Qanunlarına əsasən, Milli Kitabxana ölkə ərazisində nəşr olunan kitablardan 4 nüsxə, qəzet və jurnallardan isə 2 pulsuz məcburi nüsxə alır və onların əsasında milli mətbuatın arxiv fondunu yaradır.

Təsadüfi deyil ki, Milli Kitabxananın fəaliyyətinə yüksək dəyər vermiş ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin siyasi davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev «Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında» 24 iyun 2013-cü il tarixli Sərəncamında belə qeyd etmişdir:

«2013-cü ildə Azərbaycan Milli Kitabxanasının yaradılmasının 90 ili tamam olur.

Fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsinə çevrilmişdir. Ötən müddət ərzində o, cəmiyyətin intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynamış, elm və mədəniyyət xadimlərinin bir neçə nəslinin formalaşmasına öz töhfəsini vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq ölkədə elmi-mədəni və ədəbi irsin qorunub

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Ölkələrin Milli Kitabxana Direktorlarının Konfransı və «Avrasiya Kitabxanalar Assambleyası» Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına məktubu: 17 noyabr 2008-ci il // Xalq qəzeti, 2008, 18 noyabr.

[2] M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 2012-ci il hesabatı.

saxlanılmasında mühüm xidmətləri olan Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin».[1]

Bu nöqteyi-nəzərdən, xalqımızın əvəzsiz mədəniyyət xəzinəsi olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının inkişaf tarixinin ayrı-ayrı mərhələlərinin öyrənilməsi və kitabxanaşünaslıq elminin tələbləri səviyyəsində tədqiqi, onun zəngin dövri mətbuat fondunun tarixini, dövri mətbuat fondunda mühafizə olunan milli və xarici jurnal, qəzet və digər dövri mətbuat orqanlarını, onlardan istifadə edən oxucuların sayını və tərkibini elmi cəhətdən sistemli şəkildə təhlil edərək ümumiləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Dissertasiya işinin mövzu aktuallığı məhz bununla izah olunur.

**Problemin öyrənilmə səviyyəsi.** Milli Kitabxananın dövri mətbuat fondunun tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri məsələsi tarixinin öyrənilməsi göstərir ki, Azərbaycanda kitabxana işinin tarixinə həsr edilmiş elmi məqalələrdə, monoqrafiyalarda, namizədlik və doktorluq dissertasiyalarında bu mövzuya qismən toxunulsa da, bu məsələ konkret olaraq Azərbaycan kitabxanaşünaslığında əsaslı tədqiq olunmamış problemdir.

Milli kitabxananın dövri mətbuat fondunun tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri probleminə müəyyən dərəcədə professor A.Xələfovun kitabxana tarixinə dair dərsliklərində, kitabxana işi tarixinin nəzəri məsələlərinə həsr edilmiş dissertasiya, monoqrafiya və məqalələrində toxunulmuş, bu problemə respublikamızın tanınmış kitabxana işi tədqiqatçılarından professor Xəlil İsmayılovun, professor Zöhrab Əliyevin, tarix üzrə fəlsəfə doktorları Almas Abbasovanın, Kərim Tahirovun, tarix üzrə fəlsəfə doktoru Arzu Vəliyevanın, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqovanın tədqiqat əsərlərində qismən yer ayrılmışdır. Bu tədqiqatlarda əsasən Milli Kitabxananın yaranması və inkişaf mərhələləri, ümumi fondu, metodik fəaliyyəti, kataloq və kartoteka

---

[1] Azərbaycan Milli Kitabxanası - 90: Biblioqrafiya /Tərt. ed. M.Vəliyeva, L.Şirinova; İxt. red. və burax. məsul K.Tahirov; Red. G.Səfərəliyeva; Azərbaycan Milli Kitabxanası, Bakı, 2013, 304 s.

sistemləri, tərtib etdiyi biblioqrafik vəsaitlər, oxucularla iş üsulları konkret xronoloji çərçivədə tədqiq olunmuş, xüsusi olaraq dövri mətbuat fondunun tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri təhlil edilməmişdir.

Ölkəmizdə kitabxana işi tarixinin görkəmli tədqiqatçısı, professor Abuzər Xələfov özünün namizədlik və doktorluq dissertasiyalarında, bir sıra dərslik və monoqrafiyalarında M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaradılması və inkişafı tarixini araşdırmış, bu istiqamətdə sistemli elmi ümumiləşdirmələr aparmış, çoxsaylı elmi məqalələrində isə Milli Kitabxananın müxtəlif mərhələlərdəki fəaliyyətinin aydın mənzərəsini yaratmağa nail olmuşdur. Məsələn, alimin 1961-ci ildə müdafiə etdiyi «Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)» [1] mövzusunda namizədlik dissertasiyasını, 1974-cü ildə başa çatdırdığı «Azərbaycanda kitabxana işinin tarixi (1933-1958)» [2] mövzusunda doktorluq dissertasiyasını, «Heydər Əliyev və Azərbaycanda kitabxana işi»[3] monoqrafiyasını, üç hissədən ibarət olan «Azərbaycanda kitabxana işinin tarixi»[4] dərsliyini və s. nümunə kimi göstərmək olar.

Tarix elmləri doktoru, professor Xəlil İsmayılovun «Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər)» monoqrafiyasında Milli Kitabxananın metodik fəaliyyətinin mühüm tarixi mərhələləri təhlil edilmiş, ölkə kitabxanalarının metodik təminat sistemində Milli Kitabxananın aparıcı rolu əsaslandırılmışdır.[5]

Milli Kitabxananın yarandığı dövrdən biblioqrafik vəsaitlər sistemi yaratmaq istiqamətindəki fəaliyyəti əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin bir sıra elmi məqalə, dərslik və monoqrafiyalarında («Azərbaycanda biblioqrafiya işinin vəziyyəti və inkişafı tarixindən (1945-1956)»[6] (1960), «Azərbaycan biblioqrafiyasının

---

[1] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932). Bakı, 1960, 188 s.

[2] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (1933-1958). Bakı: Azərnəşr, 1974, 244 s.

[3] Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı, Azərnəşr, 2006, 312 s.

[4] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə, h. 2.). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007, 552 s.

[5] İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): monoqrafiya. Bakı: Bakı Universiteti, 2000, 416 s.

[6] Əliyev Z. Azərbaycanda biblioqrafiya işinin vəziyyəti və inkişafı tarixindən (1945-1956). Bakı, 1960, 64 s.

tarixi (1920-1970)»[1] (1978) və s.) işıqlandırılmışdır. Bu əsərlərdə Milli Kitabxananın çoxsahəli biblioqrafik informasiya fəaliyyəti, kitabxananın əməkdaşları tərəfindən hazırlanmış elmi və tövsiyə xarakterli biblioqrafik vəsaitlərin ətraflı tədqiqi verilmişdir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyəti haqqında «M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişafı və təkmilləşdirilməsi (1959-1985-ci illər)» adlı ilk namizədlik dissertasiyası əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun elmi rəhbərliyi ilə 1990-cı ildə Almas Abbasova tərəfindən müdafiə edilmişdir, bu dissertasiya işinin xronoloji çərçivəsi 1959-1985-ci illəri əhatə etmişdir.[2]

2009-cu ildə, yenə də professor Abuzər Xələfovun elmi rəhbərliyi ilə, Kərim Tahirov tərəfindən «M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-1959-cu illər)» adlı namizədlik dissertasiyası müdafiə edilmişdir. Xronoloji çərçivəsi 1923-1959-cu illəri əhatə edən bu dissertasiya işində Milli Kitabxananın yaradılması və inkişaf tarixi araşdırılmış, bu istiqamətdə sistemli elmi ümumiləşdirmələr aparılmışdır.[3]

2011-ci ildə BDU-nun «Biblioqrafiyaşünaslıq» kafedrasının dissertantı Arzu Vəliyeva tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin elmi rəhbərliyi ilə xronoloji çərçivəsi 1970-2000-ci illəri əhatə edən «M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik fəaliyyəti (1970-2000-ci illər)» adlı dissertasiyasını müdafiə etmişdir.[4]

2011-ci ildə isə BDU-nun «Biblioqrafiyaşünaslıq» kafedrasının müəllimi Solmaz Sadıqova tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün professor Zöhrab Əliyevin elmi rəhbərliyi ilə xronoloji çərçivəsi 1959-2000-ci illəri əhatə edən «Azərbaycan mətbuatının (kitab və dövri

---

[1] Əliyev Z. Azərbaycan biblioqrafiyasının tarixi (1920-1970). Bakı: ADU, 1978, 78 s.

[2] Abbasova A.N. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının inkişafı və təkmilləşdirilməsi (1959-1985-ci illər): Tarix elm. nam. ... dis. Bakı, 1990, 185 s.

[3] Tahirov K.M. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-1959-cu illər): Tarix elm. nam. ... dis. Bakı, 2009, 174 s.

[4] Vəliyeva A.K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik fəaliyyəti (1970-2000-ci illər): Tar. üzrə fəls. dok. ... dis. Bakı, 2011, 161 s.

nəşrlər) biblioqrafik repertuarı: tarixi, müasir vəziyyəti və perspektivləri (1959-2000-ci illər)» mövzusunda dissertasiya işini müdafiə etmişdir. [1]

Beləliklə, müxtəlif dövrlərdə respublikamızın kitabxana və biblioqrafiya işinin tarixi və nəzəri məsələlərinə həsr edilmiş monoqrafiya və dissertasiyalarda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranmasının tarixi şəraiti, inkişaf mərhələləri, hər mərhələnin özünəməxsus xüsusiyyətləri, kitabxananın maddi-texniki bazası, kitabxana fondu, oxuculara xidmət işinin forma və metodları, kadr siyasəti tədqiq edilmişdir. Lakin M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun tarixi yaranma şəraiti, onun inkişaf mərhələləri, bu fondda mühafizə olunan xarici dövri mətbuat orqanları ilə yanaşı milli dövri mətbuat orqanları resurslarının inkişafı, tematik-tipoloji xarakteristikası müstəqil və xüsusi tədqiqat obyekti olmamışdır.

**Tədqiqatın obyekti** M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondudur.

**Tədqiqatın predmeti.** M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun yaradılmasının, onun inkişafının və oxuculara bu fonddan istifadənin təşkil olunması fəaliyyətinin 1923-2007-ci illəri əhatə edən bir dövrünün sistemli tədqiqidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulmuş əsas məqsəd XX əsrin I yarısında əsası qoyulan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun 1923-2007-ci illəri əhatə edən 84 illik fəaliyyət dövrünün tarixini araşdırmaq, onun inkişaf mərhələlərini və xüsusiyyətlərini göstərmək, milli kitabxanaşünaslıq elmi fikrində onun yerini müəyyənləşdirməkdən ibarətdir.

Problemin tədqiqində aşağıdakı məsələlərin araşdırılması məqsədəuyğun bilinmişdir:

- Azərbaycan Milli Mətbuatının M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunda tutduğu xüsusi yeri və əhəmiyyətini göstərmək;
- XX əsrin 20-30-cu illərində yeni yaranan və formalaşan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun Azərbaycan mədəniyyətinin və elminin inkişafında müstəsna rolunu və oxuculara xidmətini araşdırıb müəyyən etmək;

---

[1] Sadıqova S.A. Azərbaycan mətbuatının (kitab və dövri nəşrlər) biblioqrafik repertuarı: tarixi, müasir vəziyyəti və perspektivləri (1959-2000-ci illər): Tar. üzrə fəls. dok. ... dis. Bakı, 2011, 185 s.

- 1923-2007-ci illərdə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyətinin ümumi fonunda dövri mətbuat fondunun formalaşmasını və inkişaf mərhələlərini öyrənib təhlil etməklə ümumiləşdirmələr aparmaq;
- Milli Kitabxananın yaranması, fəaliyyətinin formalaşması və təşəkkülündə iştirak etmiş Azərbaycan ziyalılarını, görkəmli alimləri, dövlət xadimlərini və kitabxana işçilərini müəyyənləşdirib onların fəaliyyətini işıqlandırmaq;
- Milli Kitabxananın dövri mətbuat fondunun tərkibini təhlil etmək və ondan oxucuların istifadəetmə səviyyəsini müəyyənləşdirmək;
- Respublikamızda aparılan elmi-tədqiqat işlərində dövri mətbuat fondunun rolunu və əhəmiyyətini göstərmək;
- 1923-2007-ci illərdə Milli Kitabxanadan istifadə edən oxucu kontingentini təhsil, peşə və milli tərkibinə görə təhlil edib onların məhz dövri mətbuatla əlaqədar informasiyaya olan tələbatının xüsusiyyətlərini ortaya çıxartmaq;
- Araşdırılan dövrün mərhələləri üzrə respublikamızın ərazisində nəşr edilmiş dövri mətbuat orqanlarının sayını müəyyənləşdirib onların nəşr dillərinə, növlərinə görə təhlilini aparmaq.

**Tədqiqat metodları.** Dissertasiyada 1923-2007-ci illərdə Milli Kitabxananın dövri mətbuat fondunun inkişaf mərhələlərinin müəyyənləşdirilməsi və hər bir mərhələnin özünəməxsus xüsusiyyətlərinin tədqiqində, əsasən, tarixi təhlil metodu tətbiq edilmişdir.

Tədqiqatda, eyni zamanda, kompleks tədqiqat metodlarından: sistemli yanaşma, statistik və müqayisəli təhlil, induksiya (konkret faktlardan ümumi nəticələr çıxarmaq) və deduksiya (ümumi nəticəni konkret faktlara tətbiq etmək), modelləşdirmə; həmçinin empirik tədqiqat metodlarına aid olan sosioloji sorğu və kitabxana işi üzrə elmi-metodik sənədlərin təhlili və ümumiləşdirilməsi metodlarından istifadə edilmişdir.

**Tədqiqatın mənbəşünaslığı.** Dissertasiyanın yazılmasında bilavasitə Azərbaycan Respublikasının Konstitusiyasına, həmçinin «Kütləvi informasiya vasitələri haqqında», «Mədəniyyət haqqında» və «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunlarında əks olunan informasiya və mədəni təsisatlardan istifadə etmək hüquqlarına əsaslanaraq Azərbaycan kitabxana işinin tarixindən, kitabxana-biblioqrafiya fəaliyyətinə dair çap olunmuş informasiya mənbələrindən, kitabxanaşünaslığa dair tədqiqat əsərlərindən, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi statistik hesabatlarından, Azərbaycan tarixinə dair elmi tədqiqatlardan, Azərbaycan Respublikasının Milli Arxivi

İdarəsinin, o cümlədən Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin sənədlərindən və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının arxivində mühafizə edilən hesabat materiallarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Mövzu ilk dəfə sistemli şəkildə, dissertasiya səviyyəsində tədqiqata cəlb olunmuş, xalqın milli sərvəti olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri, respublikamızda aparılan elmi-tədqiqat işlərində rolu araşdırılmış, oxuculara müvafiq kitabxana xidməti məntiqi baxımından təhlil olunmuş, Milli Kitabxananın kitabxana işi tarixində inkişaf xəttinin öyrənilməsinə səy göstərilmiş və gələcəkdə kitabxananın fəaliyyətinin optimallaşdırılmasına yönəlmiş bəzi təklif və tövsiyələr irəli sürülmüşdür.

Tədqiq olunan 1923-2007-ci illər ərzində Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunda cəmi 1000 adda Azərbaycan dilində qəzet (bunlardan 182 adda rayon qəzetidir), 427 adda rus, 34 adda erməni və digər SSRİ xalqları dilində olan qəzet, bundan başqa, 696 adda Azərbaycan və 1439 adda rus dilində jurnal, 718 adda 40-a yaxın xarici dildə jurnal və 50 addan çox qəzet, həmçinin ümumilikdə 53 550 qovluq qəzet və 1 416 000 nüsxə jurnal mövcud olduğu müəyyənləşdirilmişdir.

«Azərbaycan ədəbiyyatının arxivi şöbəsi»ndə dövri mətbuat orqanlarına dair 45 adda mikrofilm sənədinin, həmçinin 74 adda Azərbaycan dilində və 34 adda Azərbaycanda nəşr olunmuş rus dilində qəzet nömrələrinin qorunub saxlanıldığı məlum olmuşdur: bunlardan 39 adda 1875-1920-ci illərdə nəşr edilmiş inqilabaqədərki və Azərbaycan Xalq Cümhuriyyəti dövrünə dair qəzet nüsxələridir.

Kitabxanada saxlanılan ən qədim milli qəzet «Əkinçi» (1875), rus dilində «Бакинские известия» (Bakinskie izvestiya) (1877), ən qədim milli jurnal isə «Molla Nəsrəddin» (1906) və «Dəbistan»dır (1906).

Dissertasiya işinin elmi yeniliyi aşağıdakı amillərlə izah olunur:

- Əsərdə, ilk dəfə olaraq, sovet hakimiyyətinin qurulması dövrünə təsadüf edən Milli Kitabxananın yaranması, onun fondunun formalaşması, «milli» dövlət quruculuğu, dövri mətbuatın inkişafı, idarəetmənin zorakılıq, görünməmiş cəza tədbirləri ilə müşayiət olunan inzibati-amirlik sistemi, ermənilərin xalqımıza qarşı çirkin siyasətinin elmi əsərlərdə, həmçinin dövri mətbuatdakı əksi, eləcə də yeni cəmiyyət qurmağın bütün ağırlıqlarını çiyinlərində daşıyan milyonlarla vətənsevər insanın gərgin əmək fəaliyyəti ilə yanaşı, qısa da olsa, Azərbaycan siyasi mühacirəti, onların nəşr etdirdiyi

qəzetlər, dərgilər və s. ictimai-siyasi, elmi və mədəni fəaliyyəti müxtəlif sənədlər və dövri mətbuat materialları əsasında şərh olunmuşdur;

- Tədqiqatda, ilk dəfə olaraq, inqilabaqədərki dövrdə nəşr edilən qəzet və jurnalların toplanılmasının və oxucuların istifadəsinə verilməsinin əhəmiyyəti qeyd edilmişdir;

- Dissertasiyada, ilk dəfə olaraq, 1923-2007-ci illər ərzində Milli Kitabxananın sənəd-informasiya resurslarının inkişaf istiqamətləri, dövri mətbuat fondunun və ondan istifadə edən oxucu kontingentinin tərkibi və kəmiyyət göstəriciləri müəyyənləşdirilərək bunlara dair bir sxem və 25 statistik cədvəl tərtib edilmişdir;

- Tədqiqatda, ilk dəfə olaraq, Milli Kitabxanaya Azərbaycanın inkişafında dönüş mərhələsi illərində (XX əsrin 70-80-ci illəri), həmçinin müstəqillik illərində (1991-2007-ci illər) ümummilli lider Heydər Əliyevin, o cümlədən onun siyasi ideologiyasının davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı göstərilmişdir;

- Dissertasiyada, ilk dəfə olaraq, Milli Kitabxananın dövri mətbuat fondunu təşkil edən qəzet və jurnal fondunun, həmçinin «Azərbaycan ədəbiyyatının arxivi şöbəsi»ndə mühafizə olunan qəzet, jurnal və onların mikrofilmlərinin geniş təhlili verilmiş və sonda bu təhlilin nəticəsi olaraq dissertasiya işinin «Əlavələr» bölməsində Milli Kitabxananın dövri mətbuat fondunda Azərbaycan dilində mövcud olan qəzet və jurnalların biblioqrafiyası təqdim olunmuşdur.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiyada əldə edilmiş nəticələrdən, irəli sürülən təklif və tövsiyələrdən aşağıdakı istiqamətlərdə istifadə edilə bilər:

- Milli mətbuatın, o cümlədən Milli Kitabxananın yaranması və təşəkkül tarixinə həsr edilmiş yeni tədqiqatların aparılmasında;

- Dissertasiya işində ilk dəfə elmi dövriyyəyə daxil edilmiş statistik cədvəllərdən, hesabat-arxiv materiallarından, həmçinin dövri mətbuatın biblioqrafiyasından bəhrələnərək 1923-2007-ci illərə dair Azərbaycanda mədəniyyət, dövri mətbuat və kitabxana işinin tarixinə həsr edilmiş tədqiqatlarda;

- Respublikamızda kitabxanaçı kadrlar hazırlayan ali və orta ixtisas təhsili müəssisələrinin ixtisas fənlərinin tədrisində, kitabxana işçilərinin ixtisasartırma və təkmilləşdirmə kurslarında, həmçinin müvafiq dərsliklər və biblioqrafik vəsaitlərin hazırlanmasında;

- Milli Kitabxanada dövri mətbuat fondunun fəaliyyətinin daha yüksək şəkildə təşkil edilməsi üzrə milli strategiyanın tərtib olunmasında və s.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya BDU-nun «Kitabxanaşünaslıq» kafedrasında təsdiq edilmiş və bu kafedrada professor Abuzər Xələfovun elmi rəhbərliyi ilə yerinə yetirilmişdir.

Tədqiqatın məzmunu, əsas müddəaları, elmi nəticələri ilə bağlı müəllifin respublika daxilində və xaricdə elmi məqalələri dərc edilmiş, həmçinin beynəlxalq səviyyəli elmi seminar və konfranslarda, o cümlədən BDU-nun «Kitabxanaşünaslıq» kafedrasının elmi seminarlarında məruzə ilə çıxışları olmuşdur.

Dissertasiya işinin mövzusu ilə əlaqədar, 3-ü xarici ölkədə nəşr olunmaqla müəllifin 9 elmi məqaləsi, 2 tezisi dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin «Giriş» hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, xronoloji çərçivəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, mənbələri, işin aprobasiyası, dissertasiyanın quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin I fəsli «M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun yaranması və XX əsrin 20-30-cu illərindəki fəaliyyəti» adlanır. Bu fəsildə Milli Kitabxananın dövri mətbuat fondunun respublikamızda elm, təhsil və mədəniyyət tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb etdiyini və bu fondun komplektləşdirilməsinin, qorunub saxlanılmasının, oxucuların istifadəsinə verilməsinin böyük elmi, mədəni və tarixi əhəmiyyəti elmi cəhətdən əsaslandırılmış, onun milli əhəmiyyətə malik olması göstərilmişdir.

Bu fəsildə, həmçinin dövri mətbuat fondunun yaranması, komplektləşdirilməsi, qorunub saxlanılması kitabxananın tarixi formalaşma prosesindən ayrılmamış, ümumiyyətlə, kitabxana fondunun tərkib hissəsi kimi təhlil edilmişdir. Kitabxanada oxuculara xidmətin təşkili prosesi ayrıca bölmə kimi ətraflı araşdırılmaqla onların tələb və sorğularının ödənilməsi konkret rəqəmlər və zəngin arxiv materialları əsasında ümumiləşdirilmişdir.

Oxuculara xidmət prosesi haqqında tərtib edilmiş cədvəllər fəslin elmi əhəmiyyətinin artırılmasına müsbət təsir göstərmişdir.

Kitabxana fondunda saxlanılan və oxucular tərəfindən istifadə edilən xarici dillərdə olan dövri mətbuatın öyrənilməsinə də xüsusi diqqət yetirilməsi kompleks ümumiləşdirmələr aparmağa imkan vermişdir.

Dissertasiyanın ikinci fəsli «Milli Kitabxananın dövri mətbuat fondunun Böyük Vətən Müharibəsi və müharibədən sonrakı illərdə fəaliyyəti»nə həsr edilmişdir. Bu fəslin yazılması üçün kitabxananın arxiv fondundan, həmçinin respublikanın digər arxivlərinin sənədlərindən və dövri mətbuat materiallarından istifadə edilmiş, elmi dövriyyəyə xeyli yeni materiallar, mənbələr daxil etməyə müvəffəq olunmuşdur. Burada kitabxananın müharibə illərindəki fəaliyyəti ayrıca paraqrafda işıqlandırılmış, oxucuların fondun materiallarına böyük tələbatı olduğu konkret faktlarla göstərilmişdir. Daha sonra bu fəsildə müharibə illərində qarşıya çıxan çətinliklər, dövri mətbuat nəşrlərinin sürətlə azalması, oxucu tələbatının ödənilməsinin çətinləşməsi və bu çətinliyin aradan qaldırılması üçün kitabxananın həyata keçirdiyi tədbirlər konkret faktlarla əks etdirilmişdir.

Dissertasiyada müharibədən sonra ilk beşilliklər dövründə kitabxananın fəaliyyətində baş verən yeniliklər, fondun işini qaydaya salmaq üçün aparılan islahatlar, yeni nəşrlərin əldə edilməsi və fondun keçmiş nəşrlərlə formalaşması işi diqqətlə izlənilmişdir.

Dissertasiyanın üçüncü fəsli M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun XX əsrin 70-80-ci və müstəqillik illərindəki fəaliyyəti ilə əlaqələndirilmişdir.

Burada XX əsrin 70-80-ci illərinin ayrıca yarımfəsil kimi işlənməsi ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə əlaqədar kitabxananın fəaliyyətində böyük canlanma baş verməsi, maddi-texniki bazasının möhkəmlənməsi, kitabxananın ümumi fondunun komplektləşdirilməsi üçün vəsaitin daimi olaraq artırılması konkret faktlarla göstərilmişdir. Kitabxananın fəaliyyətində baş verən müvəffəqiyyətləri daha dolğun göstərmək üçün statistik cədvəllər tərtib edilmişdir.

XX əsrin 70-80-ci illərində Milli Kitabxananın ümumi inkişafı fonunda kitabxananın dövri mətbuat fondunun fəaliyyətində də böyük inkişaf baş vermiş, fondun oxuculara informasiya xidməti xeyli təkmilləşmiş, oxucuların sayı ilbəil artmışdır.

Dissertasiyanın müstəqilliyin ilk illərinə həsr edilmiş yarımfəslində kitabxana işi sahəsində baş verən çətinliklər, səbəblər və ideyalar aşkara çıxarılmış, ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra kitabxana işinə böyük qayğı göstərilməsi, demokratik islahatlar aparılması, fərmanlar, qanunlar və qərarlar qəbul edilməsi geniş təhlil edilmiş, kitabxana işinə dair

dövlət siyasətinin böyük əhəmiyyəti diqqətə çatdırılmışdır. Bu dövrdə baş verən proseslərin öyrənilməsinə geniş yer ayrılmış, baş verən proseslər daha ətraflı təhlil edilmiş, elmi ümumiləşdirmələr aparılmışdır. Həmçinin bu yarımfəsildə Milli Kitabxananın fəaliyyətinə dair tərtib edilmiş diaqram və cədvəllər dissertasiyanın məzmunca dolğunlaşmasına köməklik etmişdir.

Tədqiqatın nəticə hissəsində dövri mətbuat fondunun 84 illik fəaliyyəti yekunlaşdırılmaqla yanaşı, onun respublikamızda elm, təhsil və mədəniyyət sahəsindəki fəaliyyəti ümumiləşdirilmiş, mövcud nöqsanlar göstərilmiş, aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Sivilizasiyanın inkişafı tarixində baş vermiş informasiya inqilablarının dövri mətbuatın formalaşmasında təkamül rolu oynadığı qənaətinə gəlinmişdir.

2. İctimai rəyin formalaşmasında, xalqı maarifləndirməkdə, elm və tərəqqinin yolunu açmaqda əvəzsiz xidmətləri olan dövri mətbuatın M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının ümumi fondunda tutduğu xüsusi yeri, əhəmiyyəti, Azərbaycan mədəniyyətinin və elminin inkişafında 84 illik (1923-2007-ci illəri əhatə edən) müstəsna rolu ümumiləşdirilmişdir.

3. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tədqiq olunan 84 il ərzində şərəfli bir yol keçdiyi, ölkəmizdə mədəniyyətin, elmin, təhsilin inkişafında, inkişaf etmiş sivil cəmiyyətin yaradılmasında, xalqın mənəvi-intellektual səviyyəsinin yüksəldilməsində müqayisəyəgəlməz dərəcədə tarixi rol oynadığı müəyyənləşdirilmişdir.

4. Zəngin sənəd-informasiya resurslarına malik olan Milli Kitabxananın XX əsrdə yaranıb inkişaf etməsi, Azərbaycanın elm və mədəniyyətinin ən böyük uğurlarından biri olaraq, burada qorunub saxlanılan qiymətli ədəbiyyat kütləsi çoxsaylı alimlərin və yaradıcı insanların təfəkkürünün bəhrəsi kimi, milli elm, mədəniyyət və iqtisadiyyatımızı inkişaf etdirən mənəvi xəzinə olduğu göstərilmişdir.

5. Milli Kitabxananın dövri mətbuat fondunun 1923-2007-ci illərdəki tarixi həmin dövrdə Azərbaycanda kitabxana işinin nəzəri-metodik və təcrübi inkişafının, respublikada formalaşan kitabxana siyasətinin, həmçinin oxuculara xidmət işində yeni keyfiyyətlərin formalaşması tarixi olduğu və bu dövr ərzində Milli Kitabxananın əhaliyə kitabxana xidmətinin təşkilində aparıcı rolu nümayiş etdirilmişdir.

Daha sonra, «Nəticə»də, fəaliyyətə başladığı gündən bəri Milli Kitabxananın istər Sovet hakimiyyəti illərində, istərsə də Azərbaycanın müstəqilliyi dövründə dövlətin xüsusi qayğısı ilə əhatə olunmasına yardım edən Sovet hakimiyyəti illərində qəbul edilmiş «Kitabxana işinin

yaxşılaşdırılması haqqında» (1929), «Şəxsi təhsil işinin yaxşılaşdırılması haqqında» (1933), «SSRİ-də kitabxana işi haqqında» (1934), «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» (1959), «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında» (1974) qərarlar, həmçinin Azərbaycanın müstəqilliyi dövründə qəbul edilmiş «Mədəniyyət haqqında» (6 fevral 1998-ci il) və «Kitabxana işi haqqında» (29 dekabr 1998-ci il) Azərbaycan Respublikasının Qanunları, «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2007) və başqa rəsmi sənədlərin Milli Kitabxananın inkişafında mühüm rol oynaması qeyd olunmuşdur.

Yekun nəticə olaraq, tədqiqatın məzmunu və məntiqi quruluşu əsas götürülərək aşağıdakı tövsiyələr verilmişdir:

1. Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun ayrıca elektron məlumat bazası hazırlanmalıdır.

2. Dövri mətbuat fondunun tərkibi ənənəvi kitabxana kartotekasında əks olunmaqla yanaşı, ölçü (ad, nüsxə) və uçot (qəzet, jurnal) vahidi göstərilməklə Azərbaycan Milli Kitabxanasının elektron məlumat bazasında öz əksini tapmalıdır.

3. Fondun uçotu və mühafizəsi baxımından rübdə bir dəfədən az olmayaraq dövri mətbuat fondunun elektron məlumat bazasından fondun tərkibinin çap edilməsi mühüm hesab olunmalıdır.

4. Azərbaycan Milli Kitabxanasının üzvü olan və yaxud üzvü olmayan yerli və ya əcnəbi oxucuların internet vasitəsi ilə dövri mətbuat fondunun elektron məlumat bazasından qanunvericiliyə uyğun olaraq onlayn (pullu və yaxud pulsuz) istifadəsi təşkil edilməlidir.

5. Dövri mətbuat fondunun mühafizəsi üçün: a) qəzet və jurnal fondlarının hava rejiminə düzgün əməl edilməsinə; b) oxucuya verilən və qaytarılan qəzet və jurnalın öz zamanında uçotunun aparılmasına və bu prosesə xüsusi diqqətlə yanaşmağa; c) elektrik, istilik, hava, su və digər qurğulara, həmçinin yanğın təhlükəsinə nəzarətə; ç) dövri mətbuat nüsxələrinin müxtəlif zərərvericilərdən mühafizəsinə və s. riayət olunmalıdır.

Dissertasiya işinin sonunda «Əlavələr» hissəsində «M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunda Azərbaycan dilində mövcud olan qəzet və jurnalların biblioqrafiyası» təqdim edilmişdir.

**Dissertasiyanın əsas məzmunu tədqiqatçının mövzu ilə bağlı çap olunmuş aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Heydər Əliyevin Azərbaycan kitabxana işinin inkişafındakı rolu // «Dil və ədəbiyyat» jurnalı, Bakı, № 5(65), Oktyabr 2008, s. 238-240;
2. M.F.Axundov adına Milli Kitabxananın dövri mətbuat fondunun Azərbaycan mədəniyyətinin və elminin inkişafında yeri və rolu (1923-2008) // «Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal», Bakı, № 1(28), Sentyabr 2011, s. 39-50;
3. M.F.Axundov adına Milli Kitabxananın dövri mətbuat fondunun Azərbaycan mədəniyyətinin və elminin inkişafında yeri və rolu (1923-2008) // «Qarapapaqlar» jurnalı, Tbilisi, № 8, Avqust 2011, ISSN: 1987-6769, s. 44-49;
4. The Role of the Periodical Fund of the National Library Named After M.F.Akhundov in the Development of the Azerbaijani Culture and Science (1923-2008) // «International Journal of Information Science and Management», Shiraz, Iran, Vol. 3, No. 1 (Vol. 11, No. 1), January / June 2013, ISSN: 2008-8310, p. 95-104;
5. Azərbaycanın respublika əhəmiyyətli böyük dövlət kitabxanalarının dövri və ardı davam edən nəşrlər fondunda saxlanılan sənədlərin uçotu, mühafizəsi və onlardan istifadə qaydaları // «Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal», Bakı, № 1(16), Yanvar-Aprel 2015, ISSN: 2219-5882, s. 92-101;
6. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondu (1923-2007-ci illər) // «Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal», Bakı, № 2(17), May-Avqust 2015, ISSN: 2219-5882, s. 110-117;
7. Librarianship in Azerbaijan at the beginning of XXI century (2003-2008-s years) // Kitabxana.az: Müstəqil elmi, metodiki və praktik jurnal, Bakı, 2015, №1-2, s. 34-38;
8. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondu: tarixi, müasir vəziyyəti, oxuculara xidmət və inkişaf perspektivləri (1923-2007-ci illər) // Academic Science Week – 2015 / Akademik Elm Həftəliyi - 2015, International Multidisciplinary Forum / Beynəlxalq Multidissiplinar Forum: Book of abstracts (dedicated to the 70$^{th}$ anniversary of Azerbaijan

National Academy of Science), Baku, 02-04 November, 2015, s. 279-280.

9. Fasiləsiz təhsil sistemində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunun rolu və əhəmiyyəti // «Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal», Bakı, Avqust-Dekabr 2015, № 3(18), s. 74-80, ISSN: 2219-5882;
10. Фонды периодики Национальной библиотеки имени М.Ф.Ахундова: их роль и место в развитии культуры и науки Азербайджана (1923-2008-е годы) // «Библиотечное дело», Санкт-Петербург, 2016, N6 (264), с. 21-23, ISSN: 1727-4893;
11. M.F.Axundov adına Milli Kitabxananın dövri mətbuat fondunun Azərbaycan mədəniyyətinin və elminin inkişafında yeri və rolu (1923-2008) // BDU; «Kitabxana-informasiya fəaliyyəti və fənlərarası inteqrasiya» mövzusunda beynəlxalq elmi konfransın materialları, Bakı: Mütərcim, 15 noyabr, 2016, s. 19-20.

**Эльданиз Эльман оглы Мамедов**

# ФОНД ПЕРИОДИЧЕСКОЙ ПЕЧАТИ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ ИМЕНИ М.Ф.АХУНДОВА: ИСТОРИЯ, СОВРЕМЕННОЕ СОСТОЯНИЕ, ОБСЛУЖИВАНИЕ ЧИТАТЕЛЕЙ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ (1923-2007 гг.)

## РЕЗЮМЕ

В диссертационной работе исследуется богатый фонд периодической печати Азербайджанской Национальной Библиотеки имени М.Ф.Ахундова, являющейся незаменимой культурной сокровищницей. Хронологические рамки исследования охватывают период с 1923 года по 2007 год.

Диссертационная работа состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложений.

Во введении обосновывается актуальность темы, показывается уровень изучения проблемы, говорится об объекте исследования, цели, позиции, методах, источниках исследования, научном новшестве, практической значимости и апробации.

Первая глава называется «Возникновение фонда периодической печати в Азербайджанской Национальной Библиотеке имени М.Ф.Ахундова, и ее деятельность в 20-30-ых годах XX века». В первой главе, согласно хронологической рамке исследования, дается информация об особом месте и значимости Азербайджанской национальной прессы в возникшем в тот период фонде периодической печати в Национальной библиотеке, а также его месте и роли в развитии Азербайджанской культуры и науки.

Во второй главе под названием «Деятельность фонда периодической печати Национальной библиотеки в годы Великой отечественной войны и в последующие годы» представлена деятельность фонда периодической прессы Национальной библиотеки в 1941-1945-ые годы и 50-60-ые годы XX века.

В третьей главе, называющейся «Деятельность фонда периодической печати Азербайджанской Национальной Библиотеки имени М.Ф.Ахундова в 70-80-ые годы XX века и в годы независимости», отражена деятельность фонда периодической прессы Национальной библиотеки в годы поворотного этапа в развитии

Азербайджана, а также в период Гейдара Алиева и независимости нашей республики.

В заключении диссертации на основе исследования были выведены соответствующие научные итоги, определены перспективные позиции и даны некоторые рекомендации.

В списке использованной литературы в диссертации собранные материалы представлены в алфавитной последовательности по азербайджанскому и русскому языкам и пронумерованы арабскими цифрами. Затем в этой же последовательности даны использованные интернет ресурсы.

В конце диссертационной работы в разделе «Приложение» представлена «Библиография существующих газет и журналов на Азербайджанском языке в фонде периодической печати Азербайджанской Национальной Библиотеки имени М.Ф.Ахундова».

**Eldaniz Elman oglu Mammadov**

# THE FUND OF PERIODICAL PRESS OF THE AZERBAIJAN NATIONAL LIBRARY NAMED AFTER M. F. AKHUNDOV: HISTORY, CURRENT STATUS, READER SERVICE AND PROSPECTS (1923-2007)

## SUMMARY

This dissertation explores the rich fund of periodical press of the Azerbaijan National Library named after M.F.Akhundov, an irreplaceable cultural treasure trove. The chronological scope of the study covers the period from 1923 to 2007.

The dissertation consists of an introduction, three chapters, conclusion, reference list and applications.

In the introduction we justify the actuality of the topic, show the level of problem's study, and talk about the object of the research, its goals, positions, methods, research sources, scientific innovation, practical relevance and approbation.

The first chapter is called "The emergence of the fund of the periodical press in Azerbaijan National Library named after M.F.Akhundov, and its activities in the 20-30-ies of XX century". In the first chapter, according to the chronological framework of the study we provide information on the special place and significance of the national press in Azerbaijan which has arisen at the time, on the fund of periodicals in the National Library, as well as its place and role in the development of Azerbaijani culture and science.

In the second chapter entitled "The Foundation of periodicals in the National Library during the Great Patriotic War and the following years" is presented the activity of the periodical press fund of the National Library during 1941-1945 and in the 50-60-ies of XX century.

In the third chapter called "The Foundation of the periodical press of Azerbaijan National Library named after M.F.Akhundov in the 70-80-ies of the XX century and during the years of independence", covers the activities of the periodical press fund of the National Library during a turning point in the development of Azerbaijan, as well as in the period of independence of our republic led by president Heydar Aliyev.

In conclusion, we received appropriate scientific results based on the research, identified perspective positions and provided some guidance.

The "Reference list" in the dissertation collected materials are presented in alphabetical order by Azerbaijani and Russian languages and numbered by Arabic numerals. Then, in the same sequence online resources are used.

At the end of the dissertation in the "Applications" part "A list of current newspapers and magazines in the Azerbaijani language in the periodical press fund of Azerbaijan National Library named after M.F.Akhundov" is presented.

**Çapa imzalanıb:** 06.02.2017
**Format:** 60x84, 1/16
**Tiraj:** 100 nüsxə

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**

**Ünvan:** Bakı, Rəsul Rza küç., 125
**Tel./faks:** 596 21 44
**E-mail:** *mutarjim@mail.ru*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ЭЛЬДАНИЗ ЭЛЬМАН оглы МАМЕДОВ**

# ФОНД ПЕРИОДИЧЕСКОЙ ПЕЧАТИ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ ИМЕНИ М.Ф.АХУНДОВА: ИСТОРИЯ, СОВРЕМЕННОЕ СОСТОЯНИЕ, ОБСЛУЖИВАНИЕ ЧИТАТЕЛЕЙ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ (1923-2007 гг.)

**Специальность: 3356.01**
**Библиотековедение, библиографоведение и книговедение**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертация на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2017**